*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 443-448*

https://doi.org/10.62837/2025.3.443

**ALLAHVERDI ŞÖLƏ QARA QIZI**
**Azərbaycan Dillər Universiteti**
**info@adu.edu.az**
**shole_mah@yahoo.com**

# TOM STOPPARDIN "AYRI HÜZUR" PYESİ ABSURD TEATR KONTEKSTİNDƏ

**Xülasə**

Müasir Qərb dramaturgiyasının görkəmli simalarından olan Tom Stoppardın yaradıcılığında absurd teatr prinsiplərinə müraciət etməsi pyeslərinə daha dərin məna yükləməsinə səbəb olmuşdur. "Rozenkrans və Qildenstern ölmüşlər" əsəri ilə tanınmağa başlasa da, digər əsərləri də tənqidçilər tərəfindən yüksək qiymətləndirilmiş, oxucu və tamaşaçı kütləsinin marağına səbəb olmuşdur.

Yaşadığı cəmiyyətin fərdin həyatını daim sorğuladığını, idarə etməyə çalışdığını dramaturq müxtəlif pyeslərində vurğulamışdır. Onlar arasında dramaturqun ilk pyeslərindən olan "Ayrı hüzur" da diqqəti cəlb edir. Belə ki, müəllif baş qəhrəman Con Braunun timsalında real görünən dünyadan qaçaraq yalnız qalmağı seçən fərdi canlandırır. Absurd teatrın əsas prinsiplərindən olan tənha qalma istəyi pyesin əsasını təşkil edir. Con Braun yaşadığı dünya ilə arasındakı uyğunsuzluğu açıq-aşkar hiss edir. Kiçik həcmli olmasına baxmayaraq, əsər çox dərin mövzulara müraciət etmişdir. Bu səbəbdən bəhsi keçən pyes tədqiqata cəlb olunmuşdur.

**Açar sözlər:** Tom Stoppard, absurd teatr, "Ayrı hüzur", tənhalıq, reallıq

1966-cı ildə qələmə aldığı, özünəməxsus paradoksu olan "Rozenkrans və Qildenstern ölmüşlər" *(Rosencrantz and Guildenstern Are Dead)* əsərinin səhnəyə qoyulması ilə Tom Stoppard XX əsrin görkəmli dramaturqları sırasına adını yazdıra bilmişdi. 1974-cü ildə "Travesti" *(Travesties)* əsərini tamamladıqdan sonra isə tədqiqatçılar onu Bernard Şou və Oskar Uayldla müqayisə etməyə başladılar.

Absurd teatrın yaradıcılarından sayılan Samuel Bekket ilə də Tom Stoppardın yaradıcılığında paralellər görmək mümkündür. Minimalizm, lakonik ifadələr və dialoqun gizli komediyası onları bir-birinə yaxınlaşdırır. Həmçinin hər iki dramaturqun pyeslərinin qəhrəmanları *"ilk növbədə boşluğu doldurmaq, çaşqınlıqlarını əhəmiyyətsiz sözlər axınının arxasında gizlətmək üçün danışırlar"* [8, s. 135].

Qeyd etmək lazımdır ki, Tom Stoppard əsərlərində dildən ustalıqla istifadə edir. Tənqidçilər onun söz oyunlarını, hazırcavab dialoqları və mürəkkəb mövzuları incə şəkildə bir-biri ilə əlaqələndirmə bacarığını xüsusi vurğulayırlar. O, ekzistensial mövzulara yumor və ironiya ilə müraciət edir. Britaniyalı tənqidçi Benedikt Naytingeyl *(Benedict Nightingale)* Stoppardın dram sahəsindəki istedadını intellektual dərinliklə birləşdirə bilməsini yüksək qiymətləndirir. O, intellektual cəhətdən dramaturqun pyeslərinin çətin olmasına baxmayaraq, cəlbedici və əlçatan

olduğunu, tamaşaçıları, oxucuları düşündürməklə yanaşı, həm də onları əyləndirdiyini qeyd edir. Bu baxımdan, Emi Reyterin *(Amy Reiter)* fikirləri də diqqəti cəlb edir: *"Tom Stoppardın yaradıcılığı oxuculardan çox şey tələb edir. Onlar gülmək və ən ağır fikirlər üzərində düşünmək üçün hazır olmalıdırlar. Onda özlərini nəinki maariflənmiş, həm də bütün açarları işə salınmış və canlanmış görəcəklər"*[4].

Tom Stoppard oxucunu reallığı yalnız diskurs vasitəsilə görə biləcəyindən xəbərdar edir. Əsərlərində keçmişə nəzər salan müəllif heç də keçmişdəki boşluqları doldurmaq niyyətində deyil. O, bu tapşırığı oxucuların öhdəsinə buraxır. Stoppard pyeslərində ənənəvi tarixdə mövcud həqiqəti təsdiqləməkdənsə, oxucunu mətnin yaradılmasına cəlb edir. Tom Stoppardı tənqid edənlər onun pyeslərinin hiss və duyğulardan məhrum olduğunu, dayaz düşüncəli insanların gözlənilmədən dərin məna çalarına malik fikirlər səsləndirdiklərini qeyd edirlər. Amma tərəfdarlarına görə onun teatr tapmacalarına olan ehtirası B.Şounun mənəvi sualları ilə E.İoneskonun uyğunsuzluğunu çulğalaşdıran yeni dramatik üslub yaratmışdır.

Tom Stoppardın yaradıcılığında absurd teatr ənənələrinə müraciət etdiyini söyləmək olar. İlk dəfə dramaturq, tənqidçi Martin Eslinin *(Martin Esslin)* "Absurd teatr" *(The Theatre of the Absurd, 1960)* adlı kitabında işlədilən bu termin fərdin mövcud vəziyyətinin mənasızlığını izah edir. Absurd teatrda həyat insana əhəmiyyətsiz, reallıq dözülməz gəlir. İnsanın gələcək ilə bağlı heç bir ümidi yoxdur, ona elə gəlir ki, ətrafında mənalı heç nə baş vermir. Buna görə də insan real dünyadan yadlaşmağa başlayır. Tom Stoppardın absurd teatr ənənələrinə bağlı yazılmış ilk kiçik həcmli pyesi "Ayrı hüzur" *(A Separate Peace, 1966)* onun yaradıcılığında xüsusi yer tutur. Sadə bir pyes təsiri bağışlasa da, Tom Stoppard yaradıcılığının əsas mövzularını demək olar ki, əsərdə işləyib. Əsərin protaqonisti ona fikirləri zidd olan cəmiyyətdə mövcud olmaq məcburiyyətindədir. Onun həyat haqqında öz düşüncələri var və hər kəsə qarşı çıxaraq öz fəlsəfəsi ilə yaşamaq niyyətindədir. Gecəyarı özəl xəstəxanalardan birinə üz tutan Con Braun *(John Brown)* oradakı mühitdən çox razı görünür. Xəstəxanaya gəlmə səbəbini isə qalacaq bir yerə ehtiyacı olması ilə açıqlayır. Səhhətində problem olmamasına rəğmən orada yerləşməyə israr edir, buna görə də onun psixi problemlərinin olduğunu, yaxud kimdənsə gizlənməyə çalışdığını düşünürlər. Con Braunu əhatə edən sirr diqqəti dərhal cəlb edərək pyesdə təlaş hissi yaradır. Tənqidçilərə görə Tom Stoppard sadə süjeti daha dərin fəlsəfi suallarla birləşdirir. Tom Stoppard burada mürəkkəb məsələləri zahirən sadə bir şəraitdə həll etmək istəyini ortaya qoyur. Əsəri "sirr kimi geyinmiş insan vəziyyəti haqqında düşüncə" kimi xarakterizə etmək olar.

Braun xəstəxanada özünü təcrid etməsinin səbəbini belə izah edir: *"A hospital is a very dependable place. Anything could be going on outside. Since I've been in here – there could be a war on, and for once it's got nothing to do with me. I don't even know about it. Fire, flood and misery of all kinds, across the world or*

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 443-448*

*over the hill, it can all go on, but this isa a private ward; I'm paying for it" [5, s. 178]. – "Xəstəxana etibarlı yerdir. Çöldə hər şey ola bilər. Müharibə olsa belə, mənə dəxli yoxdur. Heç bu haqda bilmək də istəmirəm. Dünyanın hər yerində yanğın, daşqın və ya başqa fəlakətlərin olmasının fərqi yoxdur, bunların hamısı baş verə bilər, amma bura xüsusi palatadır; Bunun üçün pul ödəyirəm".* Braun dünya müharibələrindən sonra yaranan xaotik mühitə toxunaraq xarici aləmi bir çox fəlakətlərin səbəbi, fərdin həyatına müdaxilə edən və onu yönləndirməyə çalışan mexanizm kimi dəyərləndirir. Ətrafdakı hadisələr fərdin psixoloji vəziyyətinə ciddi ziyan vuraraq onun yadlaşmasına gətirib çıxarır. Məhz buna görə də xarici təsirlərdən başını itirən Braun evində tapa bilmədiyi rahatlığı xəstəxanada hiss edir.

Absurd teatrın mühüm xüsusiyyətlərindən biri obrazların şəxsiyyətlərinin qeyri-müəyyən və ya dəyişkən olmasıdır. Heç kim Con Braunun nəyə görə xəstəxanada olduğunu və kim olduğunu dəqiq bilmir. Şəxsiyyətin bu qeyri-müəyyənliyi ekzistensial boşluq yaradır. Eyni zamanda xəstəxananın yerinə yetirdiyi funksiya birmənalı deyil. Həm də baxım evi kimi fəaliyyət göstərən xəstəxana varlığın qeyri-müəyyənliyini təmsil edən, Braunun müstəqillik axtarışı üçün ironik bir mühitə çevrilir. Absurd teatrda zaman anlayışı da çox vaxt mənasızlaşdırılır. Əsərdə bu xüsusiyyətə diqqət yetirsək, zaman axınının qeyri-müəyyən olduğunu, personajların nə qədər müddət keçdiyini, yaxud zamanın həqiqətən keçib-keçmədiyini anlamaqda çətinlik çəkdiyini görmək mümkündür. Braun yalnız varlıların yataqda səhər yeməyi yediklərini, kasıbların isə bu imkana yalnız xəstə ikən sahib olduqlarını vurğulayır. Həmçinin naharı yataqda yeməyin cəmiyyət tərəfindən qəbul olunmadığı üçün varlıları da bu imkandan məhrum etdiyini qeyd edir. Xəstəxanada isə belə bir qayda yoxdur, rahatlıqla istənilən vaxt yataqda yemək mümkündür. Buradan belə bir nəticə çıxarmaq olar ki, Braun cəmiyyətin bu cür fikirlərinə qarşı çıxır, cəmiyyət tərəfindən qəbul olunmayan fikirlərin xəstəxana şəraitində çox asanlıqla yerinə yetirildiyini və buna görə də qalacaq yer kimi xəstəxananı seçdiyini ifadə etməyə çalışır: *"I won't to do nothing, and have nothing expected of me. That isn't possible out there. It worries them. They want to know what you're at – staying in your room all the time – they want to know what you're doing. But in a hospital it is understood that you're not doing anything, because everybody's in the same boat – it's the normal thing" [5, s. 172-173]. – "Mən heç nə etmək istəmirəm və heç kim məndən heç nə gözləmir. Bu, başqa yerdə mümkün deyil. Bu, onları narahat edir. Onlar otağında qalıb nə işlə məşğul olduğunu bilmək istəyirlər. Amma xəstəxanada belə başa düşülür ki, heç nə etmirsiniz, çünki hər kəs eyni vəziyyətdədir – bu, adi haldır."* Braun üçün "onlar" insanın həyatının hər bir anından xəbərdar olmaq istəyən və insanın həyatını idarə etməyə çalışan təhlükəli ünsürdür. Buna görə də o, "xəstə" insan obrazına girərək xəstəxanada sığınacaq tapır.

Evdə istirahət edirmiş kimi xəstəxanada Brauna şərait yaradılmışdır. Ona rahat şərait yaratdığı üçün məmnun qalan tibb bacısına Braunun cavabı maraq

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 443-448*

doğurur. O, heç vaxt evində bu cür rahat yaşamadığını dilə gətirir. Əslində, protaqonist, özünü təcrid etmək istədiyini, dünyaya yadlaşdığını, heç bir məsuliyyəti üzərinə götürmək istəmədiyini vurğulamağa çalışır. Onun dünyaya olan münasibəti depressiyaya çevrilmişdir ki, bunun öhdəsindən gəlmək üçün də özünü təcrid etmək, tək qalmaq arzusundadır. Səhnələrin birində tibb bacısının nə ilə məşğul olmaq istədiyini soruşduqda "heç nə" deyə cavab verən Brauna həyata olan inancını itirməməsi söylənsə də, o buna heç vaxt inanmadığını qeyd edir. Ona hər hansı bir fəaliyyətlə məşğul olmağı təklif etdikdə isə tək qalmaq istədiyini bildirir ki, "mən"i və dünya arasındakı uyğunsuzluğu sərgiləmiş olur. Əsərin qəhrəmanı dünyanın absurdluğunu qəbul edərək özünü yalnız tənhalıqda tapa bildiyinə inanır. Xəstəxanada olduğu müddətdə Braunun müharibədə iştirak etdiyi, əsir götürülərək düşərgədə saxlanıldığı müəyyən olur. Maraqlısı odur ki, o, müharibədə iştirak etməkdənsə, əsir düşərgəsində qalmağı üstün tutur. Çünki uzun müddət sonra düşərgədə insan olduğunu hiss edirdi. Bununla dramaturq xaos və nizam arasındakı ziddiyyəti əks etdirir. Con Braun müharibənin xaosundan qaçmaq üçün əsirlikdə mövcud olan nizamlı həyatından zövq alırdı: *"Up to then it was all terrible. Chaos... The queue on the beach - dive bombers and bullets ... The camp was like breathing out for the first time in months ... The war was still going on but I wasn't going to it any more. They gave us food, life was regulated...." [5, s. 180-181] – "Bu vaxta qədər hər şey dəhşətli idi. Xaos... Sahildəki növbə – sualtı bombardmançılar və güllələr... Düşərgə sanki aylardır ilk dəfə nəfəs almaq kimi idi... Müharibə hələ də davam edirdi, amma mən artıq ona getmirdim. Bizə yemək verdilər, həyat tənzimlənmişdi".*

Pyesdə Braunun qaldığı otağın divarına yay mövsümü ilə bağlı rəsm çəkməsi maraqlı məqamlardan sayılır. Yay fəslinin olmasına baxmayaraq, xarici aləmdən ilham almağı rədd edən Braun otağın pərdələrini çəkir. O, pərdənin arxasına gizlənərək, özünə məxsus yerdə tək qalmaqla, ənənəvi reallıqdan kənara çıxaraq öz reallığını yaratmaq istəyir. Eyni zamanda onun divara rəsm çəkməsi müharibənin sərt reallıqlarından qaça biləcəyi şəxsi və idarə oluna bilən məkan yaratmaq cəhdi üçün metafora rolunu oynayır. Xəstəxana otağının divarı onun ətrafına nizam və gözəllik tətbiq etmək istəyinin simvoluna çevrilir. Bununla yanaşı, Braunun rəsm əsəri ərsəyə gətirməsi rəssamların cəmiyyətdəki rolu kimi şərh oluna bilər. T.Stoppard məhz Braun vasitəsilə rəssamların adi reallıqdan qaçmağa, öz məna və ifadə məkanlarını yaratmağa çalışa biləcəyi fikrini araşdırır. Braunun qayğısına qalan Meqqi *(Maggie)* adlı tibb bacısı onun üçün sanki əngəldir, onun incəsənət aləminə geri çəkilməsinə maneə yaradır və ideallaşdırılmış qaçışı ilə müharibənin sərt reallıqları arasındakı uyğunsuzluğu vurğulayır. Pyesin sonunda Braunun rahatlığını pozacaq hadisələr yaşanır. Ona baş çəkməyə gələnlərin olduğunu öyrəndikdə əhvalı korlanır, əsəbləşir, yalnız qalmaq istədiyini bildirir. "Onlar"ın qalib gəldiyini bildirərək, əşyalarını toplayır və heç kimin onu tanımadığı yeni bir məkan axtarışına çıxır. Sonluğun açıq

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 443-448*

buraxılması oxuculara Con Braunun taleyi haqqında düşünməyə imkan verir. Görünür, əsərdəki gərginliyi ustalıqla idarə edən dramaturq minimalist yanaşmasına baxmayaraq, oxucu və tamaşaçıların diqqətini çəkməyi bacarır. Tom Stoppardın daha sonrakı əsərlərinə öyrəşmiş oxucular üçün pyesdəki hərəkət və məkan məhdudluğu həddindən artıq introspektiv hiss etdirə bilər. Lakin digər əsərləri kimi "Ayrı hüzur" pyesi də dərin fəlsəfi alt mənaları ehtiva edir. Dramaturq adı çəkilən əsərində reallıq və reallıqdan qaçış motivlərini tədqiq edir. O, yaratdığı qəhrəmanının timsalında absurd teatr üçün xarakterik olan insan ilə dünya arasındakı qarşıdurmanı şərh edir. Absurd teatrın mühüm elementləri olan mənasızlıq, yanlış ünsiyyət, fərdin özünü təcrid etməsi kimi mövzular pyesdə qabarıq şəkildə yer alır.

**Ədəbiyyat siyahısı:**

1. Esslin, M. The Theatre of the Absurd / M. Esslin. – Knopf Doubleday Publishing Group, – 2001. – 480 p.
2. Quliyev, Q. Müasir Qərb dramaturgiyası / Q. Quliyev, G. Hüseynli – Bakı: Zəka print MMC, – 2019. – 344 s.
3. Nightingale, B. Stoppard Gets Emotional: [Electronic resource] / The New York Times. – December 5, 1982. URL: https://www.nytimes.com/1982/12/05/theater/stoppard-gets-emotional.html
4. Reiter A. Tom Stoppard: [Electronic resource] / Salon. – URL: https://www.salon.com/2001/11/13/tom_stoppard/
5. Stoppard, T. The dog it was that died, and other plays. A Separate Peace / T. Stoppard. – London: Faber and Faber, – 1983. – p.167-183
6. Stoppard's Critical Reputation as a Wordsmith: [Electronic resource] / URL: https://www.enotes.com/topics/arcadia/critical-essays/essays-criticism
7. Tom Stoppard at the complete review: [Electronic resource] / URL: https://www.complete-review.com/authors/stoppard.htm#top
8. Шамина, В.Б. Пьесы Тома Стоппарда как отражение характерных черт постмодернизма в драматургии / В.Б. Шамина // Ученые записки Казанского государственного университета. – Т. 151, Кн. 3. – 2009. – с.133-143

**Аллахверди Ш. К.**

**«Сепаратный мир» Тома Стоппарда в контексте абсурдного театра**

**Резюме**

Современный западный драматург Том Стоппард, будучи одним из выдающихся фигур, часто обращается к принципам абсурдного театра, что придаёт его пьесам более глубокий смысл. Хотя он стал известен благодаря пьесе «Розенкранц и Гильденстерн мертвы», другие его произведения также получили высокую оценку критиков и вызвали интерес у широкой аудитории читателей и зрителей. Драматург подчёркивает в различных пьесах, что

общество, в котором он живет, постоянно подвергает жизнь индивида сомнению и пытается управлять ею. Среди этих пьес выделяется одна из его первых работ – «Сепаратный мир». В этом произведении автор через главного героя Джона Брауна изображает человека, который, убегая от кажущейся реальной жизни, выбирает одиночество. Желание остаться в одиночестве, что является одним из основных принципов абсурдного театра, лежит в основе пьесы. Джон Браун остро чувствует несовместимость с миром, в котором он живёт. Несмотря на небольшой объем, произведение затрагивает очень глубокие темы, и по этой причине она стала объектом исследования.

**Ключевые слова:** Том Стоппард, театр абсурда, «Сепаратный мир», одиночество, реальность

**Allahverdi Sh. G.**

**“A Separate Peace” by Tom Stoppard in the Context of the Theatre of the Absurd**

**Summary**

Tom Stoppard, one of the prominent figures of contemporary Western drama, has infused his plays with deeper meanings by incorporating the principles of the theatre of the absurd. Although he began to gain recognition with his work “Rosencrantz and Guildenstern Are Dead”, critics highly regarded his other works and sparked interest among readers and audiences. In various plays, the playwright emphasizes how the society in which he lives constantly questions and tries to control an individual’s life. Among these works, his early play “A Separate Peace” also stands out. In this play, the author portrays an individual, embodied in the main character John Brown, who chooses to escape the seemingly real world and embrace solitude. The desire for loneliness, one of the main principles of the theatre of the absurd, forms the basis of the play. John Brown openly feels the discord between himself and the world in which he lives. Despite its small volume, the play touches on many profound themes, which is why it has been subjected to research.

**Key words:** Tom Stoppard, the theatre of the absurd, “A Separate Peace”, loneliness, reality

**Rəyçi: fil.e.d., prof. Aynur Sabitova**